# THE USE OF OPTIMAL TRAINING METHODS IN PRESCHOOL EDUCATION

**Tarana Sadigova**

Azerbaijan State Pedagogical University,
PhD in pedagogy, associate professor
E-mail: t.sadigova2013@ya.ru
https://orcid.org/0000-0001-7893-9710

**Abstract.** The article talks about the use of optimal training methods in preschool education. It is noted that the correct selection and application of methods in the training process increases efficiency. It is emphasized that it is impossible to achieve high educational results with ineffective methods. It is analyzed that the application of new methods in modern times affects the fundamental change of the educator-teacher, his work, work methods, as a result, the method of working with children. In accordance with the requirements of the modern age, conditions should be created for children to conduct independent searches for knowledge, reproduction, and creative activities, their reference to memory, thinking, their interest in learning, and their attitude to control and assessment should be changed, their activities should be updated. The article also comments on the positive effect of the correct application of traditional methods on the training process, depending on the topic, purpose, and circumstances of the training. Depending on the goals, content, and children preparation of the training, acquiring skills such as correctly alternating traditional methods with interactive methods, and applying the most optimal method for a specific situation, helps to form the pedagogical mastery of the educator-teacher, as a result, to improve the quality of preschool education.

**Keywords:** preschool education, optimal teaching methods, teaching methods, educator-teacher, traditional methods, interactive methods.

**DOI:** 10.30546/2709-2488.2.2023.79
**To cite this article:** Sadigova T. (2023). The use of optimal training methods in preschool education. *Journal of Preschool and Primary Education*, Vol. 243, Issue II, pp. 79-88.
**Article history:** received – 17.04.2023; accepted – 01.06.2022.

# MƏKTƏBƏQƏDƏR TƏHSİLDƏ OPTİMAL TƏLİM METODLARINDAN İSTİFADƏ

**Təranə Sadıqova**

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
E-mail: t.sadiqova2013@ya.ru
https://orcid.org/0000-0001-7893-9710

**Annotasiya.** Məqalədə məktəbəqədər təhsildə optimal təlim metodlarının istifadəsindən bəhs olunur. Təlim prosesində metodların düzgün seçilib tətbiq edilməsinin səmərəliliyi artırması qeyd olunur. Səmərəli olmayan metodlarla yüksək təlim-tərbiyə nəticələrinə nail olmağın mümkün olmadığı vurğulanır. Müasir dövrün tələblərinə uyğun olaraq, uşaqların bilik almaq üçün müstəqil axtarışlar aparmalarına, yenidən hasiletmə və yaradıcılıq fəaliyyətlərinə şərait yaradılmalı, onların yaddaşa, təfəkkürə istinad etmələrinə, öyrənmə maraqlarına, nəzarət və qiymətləndirməyə münasibətləri dəyişməli, təlim fəaliyyətləri yenilənməlidir. Məqalədə, həmçinin məşğələnin mövzusundan, məqsədindən, şəraitdən asılı olaraq, ənənəvi təlim metodlarının da düzgün tətbiqinin təlim prosesinə müsbət təsiri şərh olunur. Təlimin məqsədlərindən, məzmunundan, uşaqların hazırlıq səviyyəsindən asılı olaraq ənənəvi təlim metodları ilə interaktiv təlim metodlarını düzgün növbələşdirmək, konkret situasiya üçün ən optimal olan metodu tətbiq etmək kimi bacarıqlara yiyələnmə tərbiyəçi-müəllimin pedaqoji ustalığının formalaşmasına, nəticə etibarı ilə məktəbəqədər təhsilin keyfiyyətinin yüksəldilməsinə kömək edir.

**Açar sözlər:** məktəbəqədər təhsil, optimal təlim metodları, təlim metodları, tərbiyəçi-müəllim, ənənəvi metodlar, interaktiv metodlar.

**DOI:** 10.30546/2709-2488.2.2023.79
**Məqaləyə istinad:** Sadıqova T. (2023). Məktəbəqədər təhsildə optimal təlim metodlarından istifadə. *«Məktəbəqədər və ibtidai təhsil»*, № 2 (243), səh. 79-88.
**Məqalə tarixçəsi:** göndərilib – 17.04.2023; qəbul edilib – 01.06.2023.

## Giriş / Introduction

Cəmiyyətdə baş verən sosial-iqtisadi dəyişikliklərlə əlaqədar olaraq, müasir təhsil hazırda modernləşmə mərhələsindədir. Təhsilin dünyəvilik, sivillik, ümumbəşəri mövqelərdən yeniləşdirilməsi və uşaq şəxsiyyətinin formalaşdırılması hazırda təhsil sisteminin qarşısına qoyulan əsas vəzifələrdəndir. Şəxsiyyətin maraq və ehtiyaclarını ödəyə bilən təhsil sisteminin yaradılması təhsilin bütün mərhələlərində mühüm vəzifə kimi qarşıya çıxır. Bu baxımdan məktəbəqədər təhsil müəssisələrində optimal təlim metodlarından istifadə xüsusi aktuallıq kəsb edir.

Müasir dövrdə yeni metodların tətbiqi tərbiyəçi-müəllimin, onun əməyinin, iş metodlarının, nəticə etibarı ilə uşaqların fəaliyyət metodlarının əsaslı şəkildə dəyişdirilməsini tələb edir. Uşaqlar bilikləri hazır şəkildə almamalıdırlar. Onlar bilikləri əldə etmək üçün müstəqil axtarışlar aparmalı, yaddaşa, təfəkkürə, yenidən hasiletmə və yaradıcılıq fəaliyyətlərinə istinad etməlidirlər. Həmçinin uşaqların fəaliyyətləri yenilənməli, onların təlim maraqlarına, nəzarət və qiymətləndirməyə münasibətləri dəyişməlidir.

Yeni təlim metodlarının tətbiqi tərbiyəçi-müəllimdən, ilk növbədə, yaradıcılıq, novatorluq tələb edir. Bunun üçün qabaqcıl iş təcrübəsini bilmək, ondan istifadə etmək kifayət deyil. Belə ki, tərbiyəçi-müəllim öz üzərində ciddi işləməli, nəzəri hazırlığını artırmalı, metodik ədəbiyyatı müntəzəm izləməli və hər məşğələyə xüsusi hazırlıq görməlidir, çünki optimal təlim metodlarına əsaslanan məşğələ tərbiyəçi-müəllimdən böyük zəhmət və təcrübə tələb edir. Məktəbəqədər təhsildə optimal təlim metodlarından istifadənin rolu kifayət qədər araşdırılmamışdır.

## Əsas hissə / Main part

Məktəbəqədər yaşlı uşaqlarla təlim prosesinin səmərəli təşkilində təlim metodlarının düzgün seçilib tətbiq edilməsi mühüm rol oynayır. Tərbiyəçi-müəllim qarşıdakı didaktik məqsədə nail olmaqdan ötrü, təlimin məqsəd və məzmunundan asılı olaraq, metodları dəyişməli və bu zaman təlimin texniki vasitələrindən istifadəyə geniş yer verməlidir.

"Təlim metodlarının həyata keçirilməsinin üç mərhələsi vardır. Birinci mərhələ *diaqnostika* mərhələsi adlanır. Diaqnostika mərhələsində təlim prosesinin bütün mənfi və müsbət cəhətləri ətraflı öyrənilir, pedaqoji diaqnoz müəyyənləşdirilir. *Pedaqoji diaqnostika* adlanan ikinci mərhələdə hansı yeni təlim üsullarından istifadə ediləcəyi proqnozlaşdırılır. Sonuncu, *korreksiya* adlanan mərhələdə isə bütün qüsurlar korrektə edilir, aradan qaldırılır, alınan səmərəli nəticələr geniş

miqyasda tətbiq olunur” [Sadıqov F., 2023].

Müasir dövrdə məktəbəqədər müəssisədə fəal təlim metodlarından istifadə şəraiti dəyişərək, uşaqların özlərinə inamını artırır, şəxsiyyətlərarası münasibətləri yaxşılaşdırır, biliklərə müstəqil yiyələnmək, onlardan məqsədlərinə çatmaq üçün istifadə etmək vərdişlərini formalaşdırır.

Təlim prosesində təfəkkürün fəallaşdırılması nəticəsində:

- biliklər daha müstəqil, sərbəst qavranılır;
- məntiqi, tənqidi və yaradıcı təfəkkür, habelə problemlərin həlli, qərar qəbul edilməsi üzrə vərdişlər formalaşdırılır;
- elmi-tədqiqat vərdişləri formalaşdırılır;
- qarşılıqlı hörmət hissi və əməkdaşlıq vərdişləri aşılanır.

Beləliklə, fəal təlimin zəruriliyi, ilk növbədə, ondan ibarətdir ki, şəxsiyyətdə belə qabiliyyətlərin formalaşdırılması onun daim dəyişən şəraitə uyğunlaşmasına və həyata effektiv şəkildə daxil olmasına imkan yaradır. R. Mursaqulova, N. Rüstəmova fəal təlimdə fokal metod haqqında yazırlar: “Fokal (*fokus – şəkil*) metoda əsasən, uşağın diqqəti obyektin fokus nöqtəsinə (mərkəzinə) yönəldilməlidir. Diqqət mərkəzdə olur. Bu metod pedaqoji işin qarşısında aşağıdakı vəzifələri qoyur: öyrənilən reallıqdan fərqli olaraq onun yeni, digər tərəfi (reallıqdan fərqli) haqqında fikirləşmək; ... əşyanı qeyri-adi formada göstərmək... Bu metodlarla müxtəlif növ məşğələlər aparılır, ayrı-ayrı yaş qruplarında obyekt kimi şəkillər göstərilir. Uşaqlar həmin şəkillər üzərində nağıl və hekayələr tərtib edirlər ” [Mursaqulova R., Rüstəmova N., 2012].

Təcrübə göstərir ki, fəal təlim metodları məşğələnin keyfiyyətinin artırılmasında mühüm rol oynayır. Bu metodlar məşğələni maraqlı və cəlbedici şəkildə həyata keçirməyə kömək edir. Fəal təlim prosesində təlimin məzmununun öyrənilməsi və öyrənilənlərin tətbiqi daha səmərəli olur, eyni zamanda, uşaqların dərketmə fəaliyyəti aktivləşir. Məlumdur ki, uşaqların öyrənmə həvəsinin və nailiyyətlərinin artması tərbiyəçi-müəllimin işinə kömək edir. Onu da qeyd etmək lazımdır ki, belə məşğələnin əvvəlcədən planlaşdırılması tərbiyəçi-müəllimdən daha ciddi hazırlıq tələb edir.

Doğrudur, fəal təlim bir sıra üstünlüklərə malikdir, lakin tərbiyəçi-müəllim ənənəvi (izahlı-illüstrativ və reproduktiv) metodların istifadəsindən də tam imtina etməməlidir. Ətraf aləmin bütöv qavranılmasına, uşağın bacarıqlarına, tələbatlarının ödənilməsinə dair metodların düzgün seçilməsinin təsiri danılmazdır. Təcrübə göstərir ki, bəzən tərbiyəçi-müəllimlər metodların seçilməsində çətinlik çəkirlər. Bu, ilk növbədə, çoxsaylı müxtəlif metodlardan istifadə edilməsi ilə bağlıdır. Məktəbəqədər müəssisədə ən geniş istifadə olunan metodlar aşağıdakılardır: *əyani metodlar, şifahi metodlar və praktik metodlar.*

Müşahidə, ekskursiya, illüstrasiya, nümayiş etdirmə *əyani metodlara* daxildir.

Ətraf aləmi sadəcə seyr etməkdən fərqli olaraq, müşahidə məqsədyönlü, planlı, uzunmüddətli qavrama metodudur. Hissi idrakın fəal forması, obyektiv dərketmə vasitəsi olan müşahidə prosesində müəyyən obyekt haqqında faktlar toplanır, bununla da onun haqqında ilkin təsəvvür yaranır. Müşahidə prosesində uşaqlar əşyaların oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyi öyrənirlər.

Əyani metodlar məktəbəqədər müəssisələrdə istifadə olunan metodlar içərisində mühüm yer tutur. Bu metodlar məktəbəqədər yaşlı uşaqların yaş və psixoloji xüsusiyyətlərinə uyğun gəlir, təlim prosesində onların fəallığının artmasına kömək edir, çünki bu dövrdə uşaq təfəkküründə konkretlik və emosionallıq hələ də geniş yer tutur. Uşağın apardığı fikri əməliyyatlar daha çox müəyyən konkret cisimlərlə, həmin cisimlərin arasındakı əlaqələrlə bağlı olur. Əyani metodlar əyanilik prinsipinə əsaslanır. Böyük çex pedaqoqu Y.A.Komenski əyaniliyi təlimdə "qızıl qayda" adlandıraraq yazırdı: "Mümkün olan hər şeyi duyğularla qavramağa təqdim etmək qoy müəllimlər üçün qızıl qayda olsun, yəni görünəni görmə duyğusuna, səsi eşitmə duyğusuna, dadı olanı dad duyğusuna, toxunula biləni lamisə duyğusuna təqdim etməli. Əgər hər şeyi birdən-birə bir neçə duygu ilə qavramaq mümkündürsə ... qoy eyni zamanda bir neçə duyğu ilə qavranılsın" [Komenski Y.A., 1969]. Y.A. Komenskinin əyanilik haqqında fikirləri K.D.Uşinski tərəfindən daha da inkişaf etdirilmişdir. K.D.Uşinski kiçik yaşlı uşaqların təlimində əyaniliyin tətbiqinə böyük əhəmiyyət vermişdir. O hesab edirdi ki, uşaqların ətraf aləmin əşya və hadisələri haqqında qazandıqları biliklər konkret olmalı, real obrazlara əsaslanmalıdır. O yazırdı: "Uşaq formalarla, boyalarla, səslərlə və ümumiyyətlə, duyğularla fikirləşir və uşağı başqa cür düşünməyə vadar etmək istəyən şəxs onun təbiətini əbəs yerə və zərərinə olaraq zorlamış olur... Uşağa beş kəlmə söz öyrətməyə çalışın və o, bunların üzərində uzun müddət və əbəs yerə əzab çəkəcəkdir. Siz uşağa sadə bir fikri izah edirsiniz və o, sizi anlamır, uşağa mürəkkəb bir şəkil izah edin, o, sizi çox tez anlayır" [Suxomlinski V.A., 1979].

Məktəbəqədər təlimdə əyani vəsaitlərin tətbiqi zamanı uşaqların diqqəti yalnız müşahidə olunan konkret obyektlərin əlamətlərinə yönəldikdə, əsasən qavrayış və təsəvvürlərin formalaşmasına, həmin əlamətlər ümumiləşdirilərək eyni tipli digər obyektlərə aid edildikdə isə müvafiq anlayışların formalaşmasına imkan yaradır. Tərbiyəçi-müəllim məşğələ prosesində əyani vəsaitlərdən istifadə edərkən çalışmalıdır ki, uşaqların qavrayış və təsəvvürləri müvafiq anlayışların yaranmasına xidmət etsin.

Məktəbəqədər müəssisələrdə tərbiyəçi-müəllimin bədii, ifadəli, canlı, obrazlı sözü ilə bağlı olan *şifahi metodlardan* da geniş istifadə olunur. Məktəbəqədər müəssisədə, məktəbdən fərqli olaraq, bədii əsərlərin oxunması prosesində tərbiyəçi-müəllimdən əsəri rola girərək nağıl etmək tələb olunur. Tərbiyəçi-

müəllimin nəqlinə daha çox kiçik və orta qruplarda geniş yer verilir. Böyük qrupda biliklərin möhkəmləndirilməsi üçün müsahibə metodundan istifadə olunur. Bu zaman uşaqlarda dinləmək, sual vermək, cavab vermək, eşitdiklərindən nəticə çıxarmaq bacarıqları formalaşır. Tədricən daha mürəkkəb metodlar tətbiq olunur.

Uşaqların yiyələndikləri bilikləri təcrübədə tətbiq etmələri üçün *praktik metodlar* xüsusi əhəmiyyət kəsb edir. Oyun xarakteri daşıyan bu metodlar metodik işin bütün sahələrinə xidmət edir. Bədii mətnin uşaqlar tərəfindən rollar üzrə nağıl edilməsi, səhnələşdirilməsi, kukla teatrı və s. işlər, nitq səslərinin və çətin sözlərin tələffüzü üzrə məşğələlər praktik metodlar hesab olunur.

Məktəbəqədər yaşlı uşaqlarda məşğələlərdə təlim fəaliyyətinə marağın yaradılmasında *oyun metodları* aparıcı yer tutur. Kiçik qruplarda oyun metodlarından uşaqların diqqətini müstəqil fəaliyyətdən təklif olunan fəaliyyətə keçirmək üçün istifadə olunur. Bu metodu tətbiq edərkən tərbiyəçi-müəllim çalışmalıdır ki, "sürpriz anını" məşğələnin məqsədi ilə necə birləşdirməyi düşünsün, lakin belə birləşmə heç də həmişə həyata keçirilmir.

Məşğələnin əvvəlində uşaqların qarşısına məqsədlər qoyulur ki, nəyi öyrənəcəklər, fəaliyyət prosesində hansı tapşırıqları yerinə yetirməlidirlər. Bütün bunlar uşaqlara elə formada çatdırılmalıdır ki, onlarda qarşıdakı fəaliyyətə maraq yaransın. Bu məqsədlə oyun metodlarından istifadə olunması faydalıdır. Bu metodlar uşaqlarda təlim tapşırığına maraq yaradır, onu səylə və diqqətlə yerinə yetirməyə sövq edir. Uşaqlar tərbiyəçi-müəllimin izahına diqqətlə qulaq asır, fəaliyyət prosesində onun bütün göstərişlərini nəzərə almağa səy göstərirlər. V.A.Suxomlinski yazırdı: "Min dəfələrlə deyilmişdir: təlim əməkdir və onu heç vaxt oyuna çevirmək olmaz, lakin oyunla əmək arasında Çin səddi də çəkmək olmaz... Oyunda uşaqların qarşısında dünya açılır, şəxsiyyətin yaradıcı qabiliyyətləri açılır. Oyunsuz dolğun, məzmunlu əqli inkişaf yoxdur və ola da bilməz" [Suxomlinksi V.A., 1979].

Oyun prosesində uşaqların əqli qabiliyyətlərinin inkişafına böyük əhəmiyyət verən italyan pedaqoqu D.A.Kalotsa belə hesab edirdi ki, "düzgün seçilmiş və düzgün rəhbərlik edilən oyun zamanı uşağın yerinə yetirdiyi mühakimə və əqli nəticə məhz ona görə böyük tərbiyəvi əhəmiyyətə malikdir ki, bu, onun şəxsi təcrübəsindən irəli gəlir" [Kalotsa D.A., 1909]. O, uşaqlara mühakimə və əqli nəticəni hazır şəkildə verməyi zərərli hesab edir, müstəqil mühakimə yürütmək əvəzinə mühakimələrin mexaniki təkrarlanması nın əleyhinə çıxırdı.

Beləliklə, oyun metodları müxtəlif funksiyaları yerinə yetirir:

– uşaqların diqqətini oyundan məşğələyə yönəldir;

– tapşırığın yerinə yetirilməsinə maraq yaradır;

– çalışqanlıq, səliqəlilik, əxlaqi-iradi keyfiyyətlər nümayiş etdirməyə sövq edir;

– uşaqları müəyyən vərdişlərin formalaşdırılması istiqamətində çalışdırır;
– məzmunun mənimsənilməsinə kömək edir.

Belə fəaliyyət prosesində yalnız təlim-tərbiyə vəzifələri həll edilmir, həm də fəallıq, intizamlılıq, əxlaqi-iradi keyfiyyətlər formalaşdırılır. Oyun metodlarının səmərəli olması üçün onlar materialın verilməsinin başqa formaları ilə birləşdirilməlidir. Təlimin müxtəlif üsullarının seçilməsi və reallaşdırılması məşğələnin məzmunu, onun keçirilmə vaxtı, məktəbəqədər qrupun yaş səviyyəsi ilə müəyyən edilməlidir.

Uşaqlarda artıq təlimə maraq formalaşıbsa, məşğələni birbaşa təlim vəzifəsinin qoyulmasından başlamaq olar. Belə ki, qarşıya qoyulan vəzifə fəaliyyətə başlamaq üçün arzu yaradır, məsələn, tərbiyəçi-müəllim məqsədin qoyulmasından başlayır: "Keçən məşğələdə siz məsələ qurmağı öyrəndiniz. Birinci dəfə bu, hamınızda alınmadı. Ona görə də bu gün biz sizinlə yenə məsələ qurmağı öyrənəcəyik". Tərbiyəçi-müəllimin inandırıcı səbəb göstərməsi çox vacibdir. O qeyd etməlidir ki, məsələ qurmaq bacarığı gələcək məktəbli üçün cox vacibdir. Təəssüf ki, tərbiyəçi-müəllimlər bəzən bu şərti nəzərə almır, uşaqların heç də hamısında təlimə maraq yaranmamasına baxmayaraq, məşğələni birbaşa məqsədin qoyuluşundan başlayırlar, məsələn, "uşaqlar, şəklə diqqətlə baxın, mən sizdən soruşacağam". Təcrübə göstərir ki, belə başlanğıc uşaqda məşğələyə maraq yaratmır, verilən tapşırığın yerinə yetirilməsinin əhəmiyyəti anlaşılmaz qalır. Bu isə uşaqlarda lazımi fəallığı təmin etmir.

Bundan əlavə, elementar təcrübə və modelləşdirmə də praktik metodlar kimi uşaqların inkişafında mühüm rol oynayır. *Elementar təcrübə* metodu, əsasən, orta yaş qrupundan başlayaraq həyata keçirilir. Cisim və hadisələrin daxilində qapalı olan əlamətləri, onların arasındakı əlaqələrin dəyişilmə səbəblərini öyrənmək üçün elementar təcrübə metodundan istifadə olunur. Bu metodun tətbiqində məqsəd uşaqlara hər hansı təbiət hadisəsini öyrətməkdir və bu zaman uşaqların iştirakı üçün müvafiq şərait yaradılmalıdır, məsələn, bu metoddan bitkilərin inkişafında günəşin, suyun rolu ilə bağlı istifadə etmək olar və s. (Bax: Sadıqova T.B. Məktəbəhazırlıq qrupunda ətraf aləmlə tanışlıq üzrə məşğələlər. Bakı, 2008. Məşğələ mövzusu: "Havanın canlıların həyatında rolu", səh. 85–88, "Su dövranı", səh. 92–94 ).

Məktəbəqədər təhsil müəssisələrində istifadə olunan praktik metodlardan biri də *modelləşdirmədir* ki, bu zaman əşyanın keyfiyyəti, quruluşu, digər obyektlərlə əlaqəsi haqqında biliklərə yiyələnmək, müəyyən bacarıqları formalaşdırmaq və inkişaf etdirmək məqsədi ilə hər hansı bir model uşaqlar tərəfindən düzəldi lir. Uşaqların cisim və hadisələrin əlamətlərini əyani şəkildə qavramaları, onların hafizələrinin faktiki biliklərlə zənginləşdirilməsi bu metodun üstün cəhətlərindəndir.

Metodların tətbiqi qaydası uşaqların intellektual hazırlığından, həmçinin tərbiyəçi-müəllimin bacarıq və erudisiyasından asılıdır. Bu prosesdə görmə, eşitmə, tənəffüs üzvləri fəal şəkildə iştirak edir.

Məktəbəqədər yaşlı uşaqlarda idrak fəallığının yaradılması məqsədi ilə psixoloji mexanizmlərin tətbiqi mühümdür. Şəxsiyyətə yönəlmiş təlim prinsipinə uyğun təlim prosesi yalnız uşağın tədqiqatçı mövqeyinə, idraki maraqlarına əsaslananda səmərəli olur. Problemin qoyulmasından başlanan tədqiqat bu mövqeyi yaratmaq üçün təlimin mərkəzində olmalıdır. Tədqiqatın əsasında, təqdim edilən informasiyanın ziddiyyətli və yarımçıq olması səbəbindən, problemli vəziyyətin yaradılması durur. Belə vəziyyətin yaradılması uşaqları qarşıya qoyulmuş məqsədə nail olmaq yollarını axtarmağa sövq edir. Bu da onların təfəkkürünün fəallaşmasına, tədqiqat fəaliyyətinin artmasına, idrak fəallığının inkşaf etməsinə səbəb olur. Problemli vəziyyət məsələnin həllində ziddiyyətlərin, müxtəlif nöqteyi-nəzərlərin və variantların mövcudluğuna əsaslanmalıdır.

Problemin həlli zərurəti müxtəlif fərziyyə və baxışların nəzərdən keçirilməsini və optimal metodlar tapılmasını tələb edir. Bu isə məhz təlim prosesinin digər iştirakçıları ilə fəal əməkdaşlıq prosesində, ən effektiv şəkildə əldə oluna bilər. Buna görə də mövcud təlim metodunu ifadə etmək üçün *problem* və *dialoji təlim* anlayışlarından istifadə olunur. İdrak fəaliyyətinin fəallaşdırılmasının əsas mexanizmlərindən biri ənənəvi təlim sxeminin dəyişdirilməsidir. Ona tədqiqat xarakteri verilir, uşaq biliklərin mənimsə nilməsi prosesinin başlıca simasına, tərbiyəçi-müəllimlə bərabər hüquqlu subyektə çevrilir. Bu, təlim prosesində uşaqların və tərbiyəçi-müəllimin mövqelərinin, funksiyalarının dəyişdirilməsi hesabına əldə oluna bilər.

Fəal təlim prosesində tərbiyəçi-müəllimin biliklərə aparan yolda bir bələdçi kimi əsas funksiyası, müəyyənedici rolu *fasilitasiyadır (bələdçi)*. Bu, tərbiyəçi-müəllimin liderliyinin yeni tipidir və o, tərbiyəçi-müəlimlə uşağın təhsil məqsədlərinə nail olmağa yönəldilmiş birgə fəaliyyətinə əsaslanır. O, uşaqlarla əməkdaşlıq edir – problemli vəziyyəti yaradır, tədqiqat məqsədlərinin qoyuluşunda uşaqları istiqamətləndirir, problemin həllində kömək göstərir, biliklərin mənimsənilməsi yollarını öyrədir və s. Tərbiyəçi-müəllimin vəzifəsi öyrənməyi öyrətməkdir. O, təlim fəaliyyətinin əsas tərkib hissələrini mənimsəməkdə uşağa kömək göstərir, biliklərin əldə edilməsinə, tətbiqinə dair zəruri əqli metod və vasitələrə yiyələnir. Təlim prosesinin mövcud sxemi fəallıq keyfiyyətinə malikdir. O, hər bir uşağın bilikləri müstəqil əldə etməsinə və bütün həyatı boyu öyrənməyə hazır olan müstəqil, bacarıqlı tədqiqatçı kimi yetişməsinə kömək göstərir. Belə təlim sxemini həyata keçirmək üçün tərbiyəçi-müəllim biliklərin qazanılması yolunda bələdçi roluna yiyələnməklə kifayətlənməməli, eyni zamanda, öz konkret vəzifələrini bilməli, bunları həyata keçirməyi bacarmalıdır. Bunun üçün

o, ilk növbədə, fasilitasiya prosesinin mahiyyətini aydın dərk etməlidir.

Fəal təlim metodlarından istifadə tədris prosesinin təşkilinə, tərbiyəçi-müəllim – uşaq münasibətlərinə yeni məzmun gətirir, bu münasibətlərin inkişaf etdirilməsinə, onlar arasında pedaqoji əməkdaşlığa, qarşılıqlı hörmətə, bir-birinin ləyaqətinə, hüquq və azadlıqlarına hörmət etməyə əsaslanan yeni münasibət lərin yaradılmasını təmin edir.

## Nəticə / Conclusion

Bu nəticəyə gəlirik ki, təhsildə yaradıcı düşünən, müstəqil mühakimə yürüdə bilən, demokratik dünyagörüşünə malik şəxsiyyət formalaşdırmaqda geniş imkanları olan əqli hücum, rollu oyunlar, söz assosiasiyası, tap-tapmaca, müzakirə, nağıletmə, diskussiya, sual-cavab, şaxələndirmə (klaster), problemli vəziyyət kimi təlim üsullarından istifadə edildikdə müsbət nəticələr əldə etmək mümkündür.

Fəal təlim metodları tətbiq edilərkən uşaqlar məlumatın əldə edilməsi, şərh edilməsi proseslərinə cəlb olunurlar. Bu isə mövzunun daha yaxşı mənimsənilməsinə şərait yaradır.

Ümumiyyətlə, tərbiyəçi-müəllim öz seçimini edərkən təlimin məqsədini, məzmununu və uşaqların hazırlığını nəzərə almalıdır. Əgər məqsəd bacarıq və vərdişləri formalaşdırmaqdırsa, tərbiyəçi-müəllim daha çox reproduktiv (təkrarlama və model üzrə iş) üsulu üstün tuta bilər. Ənənəvi izahedici-illüstrativ üsul isə təlimin məzmunu mürəkkəb olduqda, yeni anlayış və məlumatların öyrənilməsi tələb edildikdə daha çox səmərə verə bilər. Ənənəvi məşğələlərin gedişində düşündürücü suallar vermək, cütlüklərlə qısa fikir mübadiləsi aparmaq, müşahidə olunanları şərh etmək məqsədəuyğundur.

Tərbiyəçi-müəllimin pedaqoji ustalığı ondan ibarətdir ki, təlimin məqsədlərindən, məzmunundan, uşaqların hazırlığından asılı olaraq, ənənəvi təlim metodları ilə fəal təlim metodlarını düzgün növbələşdir məyi bacarsın, konkret vəziyyət üçün ən optimal metodu tətbiq etsin. Bu isə müasir tərbiyəçi-müəllimdən daim öz üzərində işləməyi, axtarışlar aparmağı, öz işinə yaradıcı yanaşmağı, dünyanın qabaqcıl ölkələrinin təcrübəsini öyrənməyi tələb edir.

**Məqalənin aktuallığı.** Məktəbəqədər təhsildə optimal təlim metodlarından istifadə problemi həmişə aktual olub və bu gün də aktualdır. Həmçinin bu prosesdə təlimin məqsədindən, məzmunundan, uşaqların hazırlığından asılı olaraq, ənənəvi təlim metodları ilə fəal təlim metodlarını düzgün növbələşdirməyin, konkret situasiya üçün ən optimal olan metodun tətbiqinin əhəmiyyəti şərh olunmuşdur. Optimal təlim metodlarından bacarıqla istifadə etmək tərbiyəçi-müəllimin pedaqoji ustalığa yiyələnməsi baxımından da mühüm əhəmiyyət kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə təlim prosesinin səmərəliliyinin təmin olunması məqsədi ilə optimal təlim metodlarından istifadə məsələləri elmi yenilikdir. Bu metodlar təhlil olunur və müvafiq təkliflər verilir. Tərbiyəçi-müəllim təlim fəaliyyətinin əsas tərkib hissələrini mənimsəməkdə uşağa kömək göstərir və o, biliklərin əldə edilməsinə, tətbiqinə dair zəruri əqli metodlara və vasitələrə yiyələnir. Nəticədə təlim prosesinin keyfiyyətinin artırılmasına şərait yaranır.

**Məqalənin praktik əhəmiyyəti.** Məqaləni oxuyarkən tərbiyəçi-müəllimlər təlim prosesində optimal metodların seçilməsi, tətbiqi ilə bağlı bilik və bacarıqlar əldə edir, məşğələnin məzmun və metodikasına yeni yanaşmanı dərk edir və onların peşəkarlıq səviyyəsi yüksəlir. Məqalədən məktəbəqədər müəssisələrin tərbiyəçi-müəllimləri, müvafiq sahə üzrə tədqiqat aparan tədqiqatçılar, müvafiq fakültələrin magistr tələbələri, bakalavrlar istifadə edə bilərlər.

## İstifadə olunmuş ədəbiyyat / References

1. Fəal təlim. Təlimatçılar və müəllimlər üçün vəsait. (2003). Azərbaycan Respublikası Təhsil Nazirliyi, Təhsilin İnkişafı Mərkəzi, Bakı.
2. Komenski Y.A. (1969). Seçilmiş əsərləri.
3. Məktəbəqədər təhsil proqramı (kurikulumu). (2022).
4. Mursaqulova R., Rüstəmova N. (2012). Məktəbəqədər pedaqogika. Bakı.
5. Sadıqov F. (2018). Ümumi pedaqogika. Bakı.
6. Sadıqova T. (2008). Məktəbəhazırlıq qrupunda ətraf aləmlə tanışlıq üzrə məşğələlər. Bakı, 140 səh.
7. Sadıqova T. (2022). Məktəbəqədər təhsil müəssisələrində pedaqoji prosesin təşkili. Bakı, 200 səh.
8. Suxomlinski V.A. (1979). Ürəyimi uşaqlara verirəm. Bakı, səh. 107.
9. Kalotsa D.A. (1909). Detskiye igri, ix psixologicheskoye, pedagogicheskoye znacheniye. Moskva, s. 235–236.